AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# MUZDLU İŞLƏ ƏLAQƏDAR TUTULAN GƏLİR VERGİSİ, MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA, İŞSİZLİKDƏN SIĞORTA VƏ İCBARİ TİBBİ SIĞORTA HAQQI

## İşsizlikdən sığorta haqqı üzrə

BAKI – 2025

**İşsizlikdən sığorta haqqı üzrə**

- **Sığortaedən** tərəfindən ödənilən sığorta haqqı üzrə – hesablanmış əməyin ödənişi fondunun **0,5 faizi**;
- **Sığortaolunan** tərəfindən ödənilən sığorta haqqı üzrə – işçinin əməkhaqqının **0,5 faizi** həcmində işsizlikdən sığorta haqqı tutulur.

**Misal:** Muzdla işləyən işçinin əsas iş yeri üzrə aylıq əməkhaqqı **600 manat** olmuşdur. Bu halda işçinin (sığortaolunanın) aylıq əməkhaqqından və işəgötürənin (sığortaedənin) vəsaiti hesabına aşağıdakı qaydada işsizlikdən sığorta haqqı hesablanaraq ödəniləcəkdir:

Cəmi hesablanmalı işsizlikdən sığorta haqqı - **6 manat** (3+3):

**1. İşçinin gəlirindən - 3 manat** (600*0,5%).

**2. İşəgötürənin vəsaiti hesabına - 3 manat** (600*0,5%).

**İşsizlikdən sığorta haqqının hesablanma və ödənilmə müddəti:**

Hər ay üçün əməkhaqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda hesablanmalı, sonrakı ayın **15-dən gec olmayaraq,** tam məbləğdə nağdsız hesablaşma qaydasında aidiyyəti fonda ödənilməlidir.

**Bəyannamənin təqdim edilmə müddəti:**

Hər rüb üzrə rüb başa çatdıqdan sonra **növbəti ayın 20-dən gec olmayaraq** (sığortaedən Azərbaycan Respublikasında fəaliyyətini müvəqqəti dayandırdıqda, ləğv edildikdə, yaxud fəaliyyətinə xitam verildikdə bu barədə müvafiq ərizədə (arayışda) göstərildiyi tarixdən 30 gün müddətində, lakin hesabatın təqdim edilməsi müəyyən edilmiş müddətdən gec olmayaraq) "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)" sığortaedənin uçotda olduğu vergi orqanına təqdim edilməlidir.

# Azadolmalar barədə

“İşsizlikdən sığorta haqqında” Qanun siyasi vəzifə tutan şəxslərə şamil edilmir.

**Unutmayın ki...**

Muzdlu işə cəlb edilən şəxs ilə əmək müqaviləsi bağlanmalı və onun hüquqi qüvvəyə minməsi üçün müvafiq məlumat www.e-gov.az internet səhifəsi üzərindən “Asan İmza” (http://asanimza.az) və ya SİMA token (https://token.sima.az/) və ya Mobil tətbiq əsaslı SİMA vasitəsi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə daxil edilməli və həm işəgötürən həm də işçi tərəfindən təsdiq edilməlidir.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **"Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş"** adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195-1


AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az


**www.taxes.gov.az**